# Məktəbəqədər yaşlı uşaqların milli bayramlar vasitəsilə xalq mədəniyyəti ilə tanışlığı

**Sədaqət Əliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** aliyevasedaqet.29@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. S.Ə. Cəmilzadə,
p.ü.f.d. İ.B. Əmirəliyeva

**Açar sözlər:** milli mədəniyyət, bayram, ailə, adət-ənənə, məşğələ
**Ключевые слова:** народная культура, праздник, семья, традиция, занятие
**Key words:** folk culture, holiday, family, tradition, occupation

Məktəbəqədər yaş dövründə uşaqda ən yaxşı xarakter cizgilərinin formalaşması xalq yaradıcılığı dünyası ilə tanışlıq prosesində başlayır. Xalq mədəniyyəti sosial-pedaqoji funksiyalardan başqa həm də uşağı xalq mədəniyyəti dünyasına cəlb etmək məqsədi daşıyır. Milli mədəniyyəti yaşatmaq üçün gələcək nəsillərə tam formada, təhrif olunmamış şəkildə təhvil verməliyik. Ulu öndər Heydər Əliyev deyirdi: “Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq”.

Məktəbəqədər yaşda xalq bayramlarına hazırlıq və onların keçirilməsi əlverişli mühit yaradır ki, bu da şəxsiyyətin yeni keyfiyyətlərinin inkişafına və möhkəmlənməsinə imkan verir. Bayram məktəbəqədər yaşlı uşaqlar üçün fəaliyyətin sevimli növlərindən biridir. Bayram - universal forma olub uşağa özünü cəmiyyətin bir parçası olduğuna, bayrama hazırlığın ümumi işində iştirak etməyə imkan verir, eyni zamanda öz fərdiliyini göstərməyə, ümumi işə faydasını təmin edir. Bayram uşaq qəlbinin sevincidir, onsuz uşaqlar üçün onları əhatə edən ətraf aləm maraqsız olardı. Ona görə bayramları qədim xalq həmişə qorumuşdur. Uşaqlar milli bayramlar zamanı xalq bayramlarının, ənənələrinin məzmunu ilə, bayramlarla bağlı inanc və əlamətlərlə tanış olur, xalq nitqinə xarakter olan yeni sözlər öyrənir və yadda saxlayırlar.

Uşaqlar bayramlar vasitəsilə xalqın adət-ənənələrinə fəaliyyətin əyləncə formasında yiyələnirlər. Xalq bayramları aydın və dərin məzmunlu oyunlarla zəngindir. Xalq bayram ənənələrində təqdim olunan oyunlar oyunla reallığın universal sintezini birləşdirir, uşağa bu yaş mərhələsində oyunda öz imkanlarını reallaşdırmağa, yaşlıların ciddi işində iştirak etməyə və bunu oyunlarda əks etdirməyə, böyük kimi yaşamağa və işləməyə imkan verir.

Uşaqların milli bayramlarda, adət-ənənələrdə iştirakı onları böyüklərə yaxınlaşdırır, qarşılıqlı münasibətlərini möhkəmləndirir. Böyüklərlə birgə bayramı keçirmək uşaqlarda ənənəvi xalq mədəniyyəti dəyərlərinə dərin maraq yaradır, daxili mənəvi aləmlərini inkişaf etdirir. Uşaqlarla xalq bayramlarında iştirak etməklə onların emosional sferasına təsir etmək və yaddaşlarında dərin izlər qoymaq mümkündür. Uşaqların xalq bayramlarında iştirakında məqsəd xalq adət-ənənələrinin uşaqların yaddaşında qorunması, möhkəmlənməsi və inkişafından ibarətdir. Ən başlıcası uşaqlarda milli özünü dərketmə, xalqın davamçısı olmaq fikiri formalaşır. Bununla da əsrlik ənənələrə və qədim nəslin irsinə hörmət tərbiyə olunur. Bayramlar böyük emosional və tərbiyəvi gücə malikdir, bu da ənənələrin nəsildən nəslə ötürülməsini təmin edir. Xalq bayramları və mərasimləri ənənəvi bədii mədəniyyətin aydın və

məişətlə bağlı hissəsidir. Eyni zamanda bayramlar xalq mədəniyyətinin çox erkən yaranmış növü olan folklora mürəkkəb və çoxtərəfli təsir göstərmişdir.

Bayram mərasimlərinin valideynləri və digər ailə üzvləri ilə birgə keçirməsi uşağın milli və ailə ənənələri ilə tanış edilməsinə mühüm təsir göstərir. Eyni zamanda pedaqoji prosesin təşkilində bayramlara xüsusi yer verilməlidir. Məsələn, pedaqoji prosesin təşkilində müasir texnologiyalardan istifadə etməklə uşağın fəaliyyətinin müxtəlif formalarında bayrama hazırlıq üzrə inteqrativ məşğələlər, xalq mədəniyyət ənənələrinin müxtəlif formaları-tətbiqi-bədii yaradıcılıq, sözlü, musiqili oyun folkloru, xalq məişətinin və əməyinin elementləri, xalq ənənəvi geyimləri, xalq bayram ənənələrinin mahiyyəti və məzmunu ilə tanışlıq, ənənəvi xalq bayramlarının mahiyyətini anlamaq üçün istifadə yollarının müasir şərtlərini aktuallaşdırmaq, xalq mədəni ənənələrinin orijinal formalarından istifadə etməklə etnoqrafik musiqi-oyun folkloru, xalq təsviri incəsənəti və s;

Bunların hər biri təhsil prosesində fəaliyyətin müxtəlif növlərində, stabil olaraq informasiya-maarifləndirici məşğələ formasında – nitq inkişafı, təsviri fəaliyyət (rəsm, aplikasiya), musiqi, fiziki tərbiyə məşğələsində qurulmalıdır və idraki qabiliyyətlərin inkişafına təkan verməlidir.

Məktəbəqədər təhsil müəssisələrində xalq bayramlarının keçirilməsi və ona hazırlıq prosesində aşağıdakı pedaqoji tapşırıqları həll etmək olar: yaradıcı imkanların stimullaşdırılması, xarakterin müsbət keyfiyyətlərinin və kommunikativ sferanın açılması, uşaqların doğma mədəniyyəti ilə tanışlığı, uşaqların mənəvi-əxlaqi inkişafi, uşaqların şəxsiyyətin hərtərəfli, ahəngdar inkişafına imkan verən müxtəlif fəaliyyət növlərinə cəlb olunması, milli bayramların təşkil və qeyd olunmasında uşaq və böyük kollektivlərinin birliyi, uşaqlarda gələcək günə inam və psixoloji stabillik hissinə imkan verən həyat ritmi yaratmaq və s.

Bayramlar uşaqların əxlaq tərbiyəsinin inkişafına kömək göstərməklə yanaşı onların sosiumla qarşılıqlı əlaqəsini yaradır. Sosial bilik və baçarıqlarının səviyyəsini artırmaq üçün uşaqların xalq mədəniyyətinin bir parçası olan bayramlarla bağlı biliklərini zənginləşdirmək, onları bayram ənənələrinin müxtəlifliyi ilə tanış etmək, xalqımıza xas olan əxlaqi münasibətlər haqqında fikir yaratmaq lazımdır.

**Məqalənin aktuallığı.** Məktəbəqədər yaşlı uşaqların xalq mədəniyyəti ilə tanışlığı prosesində başqa vasitələrlə yanaşı milli bayramlardan da istifadə etmək vacibdir.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, məktəbəqədər yaşlı uşaqların milli bayramlar vasitəsilə xalq mədəniyyəti ilə tanışlığının əhəmiyyəti göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məktəbəqədər yaşlı uşaqların xalq mədəniyyəti ilə tanışlığı prosesinə milli bayramlar mühüm təsir göstərəcəkdir.

## Ədəbiyyat

1.Əfəndiyev P. Azərbaycan folklorşünaslığı. Bakı: Maarif, 1994.

2.Əliyeva S. Xalq tərbiyəsinin amilləri və vasitələri. Bakı, 2016.

3.Əliyeva S. Məktəbəqədər yaşlı uşaqların milli mədəniyyətlə tanışlığının metodikası. Bakı, 2019.

**С. Алиева**

## Ознакомление детей дошкольного возраста с национальной культурой через национальные праздники

## Резюме

В статье рассматривается важность знакомства детей дошкольного возраста с народной культурой через национальные праздники. Подготовка и проведение народных праздников в дошкольном возрасте создают благоприятную среду, которая позволяет развивать и укреплять новые личностные качества. Дети осваивают народные традиции и обычаи с помощью праздников в форме развлечений. Проведение праздника вместе с старшими людьми вызывает у детей глубокий интерес к традициям традиционной народной культуры и развивает внутренний духовный мир. Праздники способствуют развитию нравственного воспитания детей, а также их взаимодействию с социумом.

**S. Aliyeva**

## Acquaintance of preschool children with national culture through national holidays

## Summary

The article discusses the importance of preschool age acquaintance with folk culture through national holidays. Preparation and holding of national holidays in preschool age create a favorable environment that allows you to develop and strengthen new personal qualities. Children learn folk traditions and customs through holidays in the form of entertainment. Carrying out the holiday together with the older people arouses children's deep interest in the traditions of traditional folk culture and develops the inner spiritual world. Holidays contribute to the development of moral education of children, as well as their interaction with society.

**Redaksiyaya daxil olub:** 06.05.2019